

# 20 Yanvar tariximizin həm qanlı, həm də qəhrəmanlıq səhifəsidir

## Qəbələ ictimaiyyəti 20 Yanvar faciəsinin iyirmi yeddinci ildönümünü qeyd etdi

*Azərbaycanın azadlığı və ərazi bütövlüyü uğrunda mübarizə tarixinə qəhrəmanlıq səhifəsi kimi daxil olmuş 20 Yanvar faciəsi respublikamızda hər il Ümumxalq Hüzn Günü kimi geniş qeyd edilir.*

*Ölkəmizə qarşı ərazi iddiaları irəli sürən Ermənistanın təcavüzkar hərəkətlərindən və keçmiş SSRİ rəhbərliyinin onlara havadarlığından hiddətlənən xalq 1990-cı ilin yanvarında Bakının küçə və meydanlarına çıxaraq buna öz qəti etirazını bildirdi. Daha da genişlənən xalq hərəkatından qorxuya düşən SSRİ rəhbərliyinin göstərişi ilə Bakıda Sovet ordusunun döyüş hissələri azadlıq carçılarına və kütləyə misli görünməmiş divan tutdu.1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Sovet ordusu heç bir fövqəladə vəziyyət elan edilmədən, Bakıda əliyalın insanlara qarşı qəfil hərbi əməlliyatlara başladı.*





Həmin faciəli günlərdə öz ölkəsinin, xalqının azadlığını, şərəf və ləyaqətini hər şeydən uca tutan mərd Vətən övladları canlarından keçərək şəhidlik zirvəsinə ucaldılar.

Böyük itkilər və günahsız insanların qətli ilə nəticələnən 20 Yanvar faciəsi Mixail Qorbaçov başda olmaqla, cinayətkar imperiya rəhbərliyinin Azərbaycana qarşı xəyanətkar siyasətinin qanlı səhifəsi idi.

Faciə zamanı 137 insan öldürüldü, 744 adam ağır xəsarət aldı, 841 nəfər isə qanunsuz olaraq həbs edildi.

Sovet ordusunun əməliyyatları nəticəsində 200 mənzil, ev, şəxsi və dövlət əmlakı dağıldı.



Lakin öz azadlığına, müstəqilliyinə can atan xalqımız buna dözməyərək mübarizliyini, əyilməzliyini, məğrurluğunu bir daha nümayiş etdirdi. Vətənin qəhrəman övladları—şəhidlərimiz o gecə azadlığa gedən yolumuzda ilk cığırlar açdılar. Məhz bunun nəticəsində uzun illərdən bəri arzusunda olduğumuz müstəqilliyə qovuşduq və ölkəmiz öz suverenliyini əldə etdi.

Həmin qanlı hadisələrdən 27 il keçsə də, xalqımız o müdhiş gecəni daim xatırlayır, bu faciəni törədənlərə öz dərin nifrətini bildirir. Zaman keçdikcə XX əsrin ən qanlı hadisələrindən biri olan və Azərbaycanın şanlı tarixində qanla yazılmış 20 Yanvar faciəsi yaddaşlarda əbədiyyətən yaşayacaq və xalqımız öz müstəqilliyini göz bəbəyi kimi qoruyacaqdır.

Qanlı Yanvar faciəsinin səhəri günü həyatını təhlükəyə ataraq ümummilli lider Heydər Əliyevin Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gəlməsini, xalqımızın kədərini bölüşməsini və kommunist rejiminin respublikamızda həyata keçirdiyi qanlı aksiyanı qətiyyətlə pislədiyini yaşlı nəsil çox gözəl xatırlayır. Ulu öndərin bu cəsarətli addımı xalqımıza təpər və güc verdi, ona dayaq və təsəlli oldu.

Sonradan ümummilli lider Heydər Əliyev ölkəyə rəhbərlik etdiyi dövrdə 20 Yanvar hadisələri dövlət səviyyəsində siyasi-hüquqi qiymətini aldı. Azərbaycan xalqına qarşı törədilmiş bu siyasi-hərbi cinayətin cavabdehlərinin, günahkarlarının adları açıqlandı. Şəhidlərin xatirəsinin əbədiləşdirilməsi üçün ardıcıl addımlar atıldı.

* * *

20 Yanvar faciəsinin 27-ci ildönümü ölkəmizin hər yerində olduğu kimi Qəbələdə də geniş qeyd olundu.

Hələ yanvar ayının ilk günlərindən başlayaraq, rayon icra hakimiyyəti başçısının sərəncamı ilə təsdiq olunmuş "20 Yanvar Ümumxalq Hüzn Gününün 27-ci ildönümünün keçirilməsinə dair tədbirlər planı"na uyğun olaraq rayonun bütün yaşayış məntəqələrində, idarə, təşkilat və müəssisələrində, məktəblərdə 20 yanvara həsr olunmuş müxtəlif silsilə tədbirlər keçirilmişdir.

Ümumtəhsil ocaqlarında 20 Yanvar faciəsini əks etdirən stendlər, rəsm sərgiləri, şeir, inşa yazı müsabiqələri, ədəbi-bədii kompozisiyalar təşkil olunmuş, şagirdlərdə vətənpərvərlik hisslərinin aşılanması istiqamətində digər tədbirlər həyata keçirilmişdir.

Yanvarın 20-də rayon ictimaiyyətinin çoxminlik izdihamı şəhərimizdəki Qəbələ Şəhidləri Abidə Kompleksinin qarşısına toplaşmışdı.

Saat 10-da başlanan mərasimdə əvvəlcə Qəbələ Rayon İcra Hakimiyyəti adından hazırlanmış əklil abidə kompleksində alovlanan Əbədi Məşəlin önünə qoyuldu, torpaqlarımızın azadlığı uğrunda şəhid olmuş igid qəbələlilərin uyuduğu məzarların üzərinə gül dəstələri düzüldü.

Sonra izdihamlı insan axınının abidə kompleksinə ziyarəti başladı. Əlində tər qərənfillər tutmuş qəbələlilər dərin ehtiram və qürur hissi ilə azadlığımız uğrunda canlarından keçmiş şəhidlərimizin kompleksdəki rəmzi məzarlarını ziyarət etdilər.

Saat 12-də şəhərdə hərəkət edən avtomobillər dayanaraq, qəhrəman Vətən oğullarının müqəddəs xatirəsini bir dəqiqəlik səs siqnalları ilə yad etdilər.

Qəbələlilər Azərbaycanın azadlıq salnaməsini öz qanları ilə daş kitabələrə yazan və müdhiş 20 Yanvar gecəsi canını Vətən uğrunda fəda edən qəhrəman insanları heç vaxt unutmur, onların əziz xatirəsini daim uca tutur.

✍ **Varis YAQUBOV,**
**"Qəbələ".**
**İlkin Vəlizadə.**

## Böyük faciənin ildönümü anıldı

***Qəbələ Rayon Polis Şöbəsində 1990-cı ilin 20 yanvarında xalqımıza qarşı törədilmiş faciənin 27-ci ildönümü ilə əlaqədar tədbir keçirilmişdir. Tədbiri giriş sözü ilə şöbənin rəisi, polis polkovniki Nadir Məmmədov açmışdır.***



Rəis bildirmişdir ki, 1990-cı ilin 20 yanvarında xalqımızın başına gətirilən faciədən 27 il keçir. Ancaq neçə il keçir keçsin müstəqillik yolumuzdakı bu qanlı, eyni zamanda şərəfli tarix heç vaxt yaddan çıxmayacaq. İmperiya cəlladları həmin gün neçə igid oğul və qızımızın qanını töksə də, xalqımızı şərəfli müstəqillik, azadlıq yolundan döndərə bilmədi. Əksinə xalqımızın azadlıq əzmi daha da gücləndi və qısa müddətdə vətənimizin igid övladları öz amalına qovuşdu. Azərbaycan azad, suveren dövlətə çevrildi.



Vətənimizin azadlığı uğrunda canından keçmiş mərd oğul və qızlarımızın əziz xatirəsi bir dəqiqəlik sükutla yad edildi. 20 Yanvar faciəsinin törədilmə səbəbləri və nəticələri barədə məruzə etmək üçün söz, Qəbələ Rayon Təhsil Şöbəsinin inspektoru, tarix müəllimi Rasim Bayramova verildi.

Rasim Bayramov çıxışına ulu öndər Heydər Əliyevin «1990-cı iln qanlı yanvarında Azərbaycanın azadlığı və müstəqilliyi uğrunda şəhidlik zirvəsinə ucalmış vətən övladları özlərinin fədakarlığı, şəhidliyi ilə xalqımızın qəhrəmanlıq salnaməsinə parlaq səhifə yazdılar. Bu gün Azərbaycan xalqı özünün milli mənliyini qorumaq üçün canlarından keçən övladları ilə fəxr edir» sözləri ilə başladı. Natiq qeyd etdi ki, faciənin törədilməsində məqsəd öz hüquqlarını və azadlıqlarını müdafiə etmək üçün ayağa qalxmış xalqın haqq səsini boğmaq, azadlıq arzularını ürəyində qoymaq idi. Ancaq imperiya pəhbərliyi məqsədinə nail ola bilmədi. Azərbaycan xalqı azadlıq uğrunda mübarizəsindən geri çəkilmədi. Bu qanlı hadisə Azərbaycan xalqının öz amalı uğrunda nə qədər fədakar olduğunu bir daha dünyaya sübut etdi və xalqımız öz müqqədəs arzusuna, azadlıq arzusuna nail oldu.

Tədbiri Qəbələ Rayon Polis Şöbəsinin rəisi, polis polkovniki Nadir Məmmədov yekunlaşdırdı.

✍ **Qüdrət SƏMƏDOV.**
**"Qəbələ".**
**İlkin Vəlizadə.**